**Qədim Şərq - dünya sivilizasiyasının beşiyidir**

**MİR-BAGIRZADƏ SƏMİRƏ ALTAY QIZI**

# KULTUROLOGİYA: DÜNYA MƏDƏNİYYƏTİNİN TARİXİ VƏ NƏZƏRİYYƏSİ

**(SXEMLƏR, CƏDVƏLLƏR)**

**DƏRS VƏSAİTİ**

**Tərtib edən**: ***Mir-Bağırzadə Səmirə***, fəlsəfə doktoru,dosent

**Redaktor**: ***Behbutov T.R.***, fəlsəfə doktoru,dosent

**Rəyçi: *Kərimli V.,*** fəlsəfə doktoru, dosent

**Mir-Bağırzadə S.A. Kulturologiya: Dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi. Dərs vəasiti, - Bakı, - 2020,-70 s.**

© Müəllif hüquqları qorunur.

**Qədim Şərq - dünya sivilizasiyasının beşiyidir**

**MİR-BAGIRZADƏ SƏMİRƏ ALTAY QIZI**

# KULTUROLOGİYA:DÜNYA MƏDƏNİYYƏTİNİN TARİXİ VƏ NƏZƏRİYYƏSİ

## DƏRS VƏSAİTİ

**İstedadlı elm adamları Tahir Behbutov (Azərbaycan), Fuad Məmmədov(Azərbaycan), Farit Latıpov (Başqırdıstan), Firudin Qurbansoy (Azərbaycan) dəyərli məsləhətlərinə görə dərin minnətdarlığımı bildirirəm.**

**Выражаю глубокую благодарность за ценную консультацию талантливым ученым Таиру Бехбутову (Азербайджан), Фуаду Мамедову (Азербайджан), Фариту Латыпову (Башкортостан), Фирудину Гурбансою (Азербайджан).**

AMEA Fəlsəfə İnstitutunun "Davamlı inkşafın fəlsəfəsi"şöbəsinin iclasının qərarı əsasında çap olunur (03.09.2020 il 4saylı protokolundan çixarış)

**BAKI-2020**

# GİRİŞ

Kulturologiya - insan və cəmiyyət haqqında sosial və humanitar biliklərin qovşağında meydana gələn və bütövlükdə, insan varlığının müəyyən bir funksiyası kimi mədəniyyəti öyrənən elmdir. Kulturologiya - həm də insanın və insan icmalarının tarixi varlıqlarının müxtəlif mərhələlərində mədəni davranışlarını araşdıran elmlər toplusunun müxtəsər formasıdır. O mədəniyyət nəzəriyyəsi və mədəniyyət tarixi hissələrinə bölünür.

“Kulturologiya: Dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi" kursunun ali təhsil prosesinin tədrisinə daxil edilməsi tələbələrin ideoloji hazırlığının gücləndirilməsi, öz müqəddəratını təyin etmək üçün dəyər təlimatlarını hazırlamaq qabiliyyətlərinin inkişafı ilə əlaqələndirilir. Kulturoloji biliklərin humanist, tədris və tərbiyə funksiyasının səmərəliliyinin artırılması tədrisin formaları və metodlarının aktivləşdirilməsini, tələbələrin yaradıcı müstəqil işləmələri üçün imkanlar yaratmağa təkan və istiqamət verir.

Dərs vəsaiti kulturologiya və incəsənət fakultələrinin tələbələri ücün nəzərdə tutlmuş və tədris olunmuşdur. Dərs vəsaitinin materialları cədvəl, sxemlər, xrestomatik bilklərlə zənginləşdirmiş və təqdim edilmişdir. “Kulturologiya: Dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi” dərs vəsaiti zəruri olaraq mədəniyyətşünaslıq, kulturologiya üzrə tədris materialları məcmuəsinə məntiqi bir əlavədir. Aparıcı fikirlərin və idrak qurucularının problemli sahəsini ortaya qoyur və öyrənilən mövzunun semantik qavrayışı və semantik anlayışını aktuallaşdırmaq üçün hazırlanmış məlumat və intellektual materialların didaktik olaraq işlənmiş bir sistemi yaradır.

Tədris materialını mənimsəmək üçün, struktur və məntiqi sxemlərin daxil edilməsi tələbələrə tədris planın nəzəri, tarixi və praktik səviyyənin vəhdətində dərk etməyə, problemin məntiqi əlaqələrini görməyə, əsas məzmunu qısa və lakonik formada təqdim etməyə imkan verir.

## I BÖLMƏ. KULTUROLOGİYA

## KULTUROLOGIYANIN ƏSAS HİSSƏLƏRİ:

| | |
|---|---|
| **1.Dünya mədəniyyətinin tarixi** | *İnsanların (bəşəri) həyat fəaliyyətinin dəyərli pozitiv tarixi yaradıcı nailıyyətləri, mahiyyəti, üsulları, həyat üçün fiziki zəhmətı, ağılı, hissləri ilə yaranan proqressiv ( tərəqqi) inkişafdır;*<br>**Mədəniyyət tarixinin inkişaf mərhələləri:** İbtidai mədəniyyət; İlk sivilizasiyalar və Antik mədəniyyət; Qul cəmiyyətinin mədəniyyəti; Feodal mədəniyyəti; İslam mədəniyyəti; İntibah mədəniyyəti; Yeni zamanın mədəniyyəti; Kapitalizm mədəniyyəti; Sosializm mədəniyyəti; Müasir dünya mədəniyyəti. |
| **2.Mədəniyyətin nəzəriyyəsi** | *Dünya mədəniyyəti inkişafında kompleks tədqiqatlar.*<br>**Nəzəri-mədəni blokun tərkibi:** Kuluroloji antropologiya;Mədəniyyətin fəlsəfəsi;Etnologiya;Mədəniyyətin sosiologiyası;Mədəniyyətin psixologiyası;Mədəniyyətin teologiyası;Mədəniyyətin sinergetikası; Mədəniyyətin metodoligiyası; Tarixi təcrübədə mədəniyyətin inkişafında elmi-nəzəri ümumiləşdirmə; Sosial - mədəni inkişafı üçün layihələrin, modellərin, və texnologiyaların işlənməsi və s. |

**Kulturologiya - humanitar , ümümi elmlərin metodları və nailiyyətlərini istifdə edir**:

| |
|---|
| Tarix, fəlsəfə, arxeologiya, etnografiya, antropologiya, məntiq, psixologiya, etika, estetika, incəsənət, sosiologiya, linqvistika, filologiya, coğrafiya, iqtisadiyyat, dövlət və hüquq tarixi və nəzəriyyəsi, dinşünaslıq, ekologiya, politologiya və s. |

**Kulturologiyanın əsas və vacib problemləri və sualları**:

| | |
|---|---|
| 1 | İnsanın yaranması və inkişafi; |
| 2 | Cəmiyyətin və dövləttin yaranması və inkişafı; |
| 3 | Yaranan dəyərlərin mahiyyəti, strukturu və xüsusiyyəti: coğrafi,tarixi və sosial şəraiti və onların yaranma vaxtı və məkanı; |
| 4 | Məqsədlər,texnologiyalar, müqaisəli dəyərlər və yaradıcı müəlliflər; |
| 5 | Funksiyaların mexanizmı, qarşılıqlı əlaqələr, mədəniyyətin bəzi tərəfləri və institutların inkişaf qanunları; |
| 6 | Mədəniyyətin qorunması, saxlanılması , mübadilə üsulları və gələcək nəsillərə ötürülməsi; |
| 7 | Mədəniyyətin bu gun və gələcəy ücün dəyəri və əhəmiyyəti; Proqnozlaşma. |

# II BÖLMƏ. MƏDƏNİYYƏTİN NƏZƏRİYYƏSİ

## AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASININ BAYRAĞIN RƏMZLƏRİ

**Müəllif: Əlibəy Hüseynzadə**

| Bayrağın rəngləri: | Bayrağın rəmzləri: |
|---|---|
| GÖY | TÜRKÇÜLÜK |
| YAŞIL | İSLAMÇILIQ |
| QİRMIZI | AZADLIQ,MODERNLƏŞMƏ,AVROPALAŞMA |

**Əlibəy Hüseynzadə** Azərbaycan bayrağının rəmzlərinin təklıfı əsasında **Əhməd bəy Ağayev(Ağaoğlu)** Maltada, 1919-1920-ci ildə məşhur”ÜC Medenyyet” (Üç mədəniyyət) əsərini yazdı, o burada müasir **Qərb mədəniyyətini** / sivilizasiyasını, **Buddist(Türk mədəniyyəti )** və **İslam mədəniyyəti**/ sivilizasiyası ilə müqayisə etdi və birincisinin üstünlüyünə işarə etdi. Bu əsər *Əhməd bəy Ağayevin* siyasi görüşlərinin təkamülündə və ittifaqçı ideologiyası ilə son fasilədə bir dönüş nöqtəsi hesab edilə bilər. İlk dəfə 1927-ci ildə” Üç mədəniyyət”əsəri nəşr olundu. O, yalnız Qərb geyimlərini geymək və ya Qərb tipli qurumlar açmaqla deyil, düşüncə, qəlb, münasibət və qavrayışla Qərb dəyərlərini qəbul etməkdə israr etdi (***Qərb mədəniyyətin*** əsasında ***İslam sivilizasiyasının humanist və maarifşilik əsasları*** dururdu, o onun varisi və davamçısı olmuşdur). *Əhməd bəy Ağaoğlu* həmçinin *liberalizmi və fərdi* azadlığı **Qərb sivilizasiyasının** əsas xüsusiyyətlərindən biri hesab edirdi. **Şərq sivilizasiyalarından** fərqli olaraq, onun fikrincə, **Qərbdə** fərdin inkişafı cəmiyyətin inkişafı üçün əsasdır. Qeyd etmək vacibdir ki, bu əsəri yazmazdan əvvəl *Ə.Ağayev* din və milli ideyanı "*sintez etməyə*" çalışmışdı. Üç mədəniyyətdə, dinin cəmiyyətdəki rolunu tənqid etdi, ilk dəfə əxlaq (Türk ahlak) dindən ayrı hesab olunur, onu ümumbəşəri / dünya dəyərləri sferasına yerləşdirirdi: Klassik islam sivilizasiyanın dəyərləri artiq itmişdi və cəhalət onun yerini əvəz etmişdi.

## KULTUROLOJİ NƏZƏRİ MƏKTƏBLƏR:

**Lesli Uayt Alvin(1900-1975)-** kulturologiyanın banisi, amerikalı kulturoantropoloq, neoevolusiya konsepsiyasının və "Mədəniyyət haqqında elm"(1949) kitabın müəllifidir. Bu kitabda o sosiologiyanın və kulturologiyanın fərqini qeyd etmişdi: "*Sosiologiya* – individlərin(fərdlərin) və cəmiyyətin qarşılıqlı əlaqəsidir və bununla o formalaşır.*Kulturologiya* isə mədəniyyətin *elementləerini: ənənələr, institutlar, kodlar, texnologiyalar, ideyalar* - öyrənir. Ona görə də kulturologiya fənni - ictimai həyatının mənasıdır". L. Uayt mədəniyyəti 3 sistemalti təsnifata bölür:

| | |
|---|---|
| 1.<u>Texnoloji</u>(əsas): | istehsalat alətləri,yaşayiş üçün vasitələr;yaşayişi tikmək üçün materiallar,hücüm və müdafiə üçün vasitələr; |
| 2.<u>Sosial:</u> | kollektiv özünüaparma(özünü idarəetmə) tipləri; |
| 3.<u>İdeoloji:</u> | ideyalar,inam və inanclar,biliklər. |

**Mədəni insanın- Homo cultural** düsturu:

| | |
|---|---|
| 1. | Bilik |
| 2. | Bacarıq |
| 3. | Təşkilatçılıq (Mütəşəkkillik) |
| 4. | Mənəviyyət |
| 5. | Yaradıcılıq fəaliyyəti |

## TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ ETDİRƏN MƏDƏNİYYƏT:

| **TOYNBİ MƏKTƏBİ** | |
|---|---|
| **1** | ***YARANMA*** |
| **2** | ***DİRCƏLMƏ*** |
| **3** | ***DÖNÜŞ*** |
| **4** | ***DAĞILMA*** |
| **5** | ***MƏHVOLMA*** |

## Azərbaycan alimi - Nəsir əd-Din Tusi

**Nəsir əd-Din Tusinin** irsi zəngin və çoxşaxəlidir, elmin müxtəlif sahələrini əhatə edir: fəlsəfə,mədəniyyət, siyasət, etika, ilahiyyat, hüquqşünaslıq, məntiq, psixologiya, iqtisadiyyat, ədəbiyyatşünaslıq, fizika, astronomiya, riyaziyyat, triqonometriya, həndəsə, coğrafiya və bir çox digər elmlər. Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" Şərqdə əxlaq və təhsil haqqında ən çox yayılmış kitabdır. Bu əsərdə N.Tusinin mənəvi saflığın mədəni-fəlsəfi əsasları, ailə idarəçiliyi və valideyn tərbiyəsi, ölkəni idarəetmə siyasəti ilə bağlı fikirləri əks olunur. "Əxlaqi- Nəsiri" 3 hissədən ibarətdir: "Əxlaq təmizliyi", "Ailənin idarə edilməsi", "Ölkəni idarəetmə siyasəti". Əsrlər boyu Orta və Yaxın Şərqdə mənəviyyat və əxlaq qaynağı hesab olunan “Əxlaqi-Nəsiri” kitabında Nəsirəddin Tusinin insan, ailə, cəmiyyət, əxlaq, din, ictimai münasibətlər barədə dolğun təsəvvürləri, mədəni, etik-fəlsəfi Şərq psixologiyasından fikirləri yer alıb."Əxlaqi-Nəsiri" dəfələrlə müxtəlif ölkələrdə (Bombey, Tehran və digər şəhərlərdə) mətbəə və litoqrafik üsullarla nəşr edilmişdir. N. Tusinin əsəri dərin və dəyərlidir. Bu möhtəşəm əsər professor Rəhim Sultanov tərəfindən Azərbaycan dilinə təcümə edilmiş, ilk dəfə 1980-ci ildə çapdan çıxmışdır. XX əsrin ortalarındandan Azərbaycan tədqiqatçıları N.Tusinin yaradıcılığının müxtəlif aspektlərini araşdırmışlar.

## Azərbaycan alimi -Abbasqulu Ağa Bakıxanov

**Abbasqulu Ağa Bakıxanov** (1794-1847) - Azərbaycanın maarifçi alimi,-pedaqoqı, şairi və yazıçısı, əsərlərini azərbaycan,fars və ərəb dillərində yazan, gənc nəslin tərbiyəsi ilə bağlı "Təhsilul əhlaq" (Əxlaq tərbiyəsi) əsərini yazmışdır: burada əsas mövzular: ədalət, valideynlərə hörmət,yüksək tərbiyədir;

A.A. Bakıxanov uşaqların Azərbaycan, rus, gürcü dillərini, tarixini və s. öyrənə biləcəyi, ***Dünyavi Məktəb*** yaratmaq ideyasını təqdim etdi. "Eynul Mizan" - məntiqə həsr olunmuş, "Gulistani-İrəm" - Azərbaycan tarixinə aid əsərərini yazdı; A.A. Bakıxanovun qardaşı Abdullah Ağa Zərdabinin məktubuna və sorğusuna cavab olaraq "Əkinçi" qəzetinin yaradılmasına maddi yardım göstərmişdir. Abbasqulu Ağa Bakıxanov Azərbaycan mədəniyyətini öz əsərləri və maarifçi fəaliyyəti ilə İslam və Qədim Azərbaycan sivilizasiyalarının əsas istiqamətlərini davam etdi, intellektual tərəqqi prosesina böyük təkan verdi. Bu gün də onun əsəsərləri və fəaliyyətinin nəticələri öz bəhrəsini göstərir.

**N.A.BERDYAYEV - İNSANIN TƏBİƏTƏ OLAN MÜNASİBƏTİ NƏZƏRİYYƏSİ:**

Antropologiya elminin təxmini hesablaşmalarına görə canlı orqanizm kimi insan da bir çox milyon illər əvvəllərə təsadüf edirsə, onun «mədəniyyət» təzahürlərinin tarixi yarımmilyon illik tarixə təsadüf edir. Tanınmış kulturoloq-alim **N.A.Berdyayev** *bu zaman kəsiyində insanın təbiətə olan* ***münasibətlərinin dörd mərhələsini təsnif edir*****:**

| | |
|---|---|
| 1 | insanın təbiətə yüklənməsi; |
| 2 | təbiətdən qopma, təbiətə qarşıdurma və onunla mübarizəsi; |
| 3 | təbiəti mənimsəmək üçün ona müraciəti; |
| 4 | təbiətin mənən bərpası. |

**P.ŞARDEN- YERİN TƏKƏMÜL MƏRHƏLƏLƏRİ**:
Şarden «İlahi aləm», «İnsan fenomeni» adlı əsərlərində Vernadski kimi ***noosfer*** anlayışı aktında - **Yer üzünün «düşünən» ideal təbəqəsini başa düşür**. **Noosferin** yaradıcısı yeganə düşünən varlıq olan ***insandır.*** Şardenə görə, *Yer özünün təkamülündə* ***dörd mühüm mərhələni keçmişdir***:

| | |
|---|---|
| 1 | həyatdan əvvəlki dövr («litosfer»); |
| 2 | həyat («biosfer»), düşüncə («noosfer»); |
| 3 | fövqəlhəyat (ilahi aləm); |
| 4 | insanın Allahla vəhdətini, birləşməsini əhatə edir. |

**MƏDƏNİYYƏT FƏLSƏFƏSİNİN ƏSAS MƏKTƏBLƏRİ:**

| | |
|---|---|
| 1. | **NEOKANTÇILIQ**- TƏNGİDİ-FƏLSƏFƏ SİSTEMİ:*DUALİZM,TƏCRÜBƏ*YƏ ƏSASLANAN. |
| 2. | **FENOMENOLOGİYA** - SÜÜR FENOMENİ ELMİ. |
| 3. | **PSİXOANALİZ**-SÜÜRSUZ VƏ DİGƏR PSİXİ PROBLEMLƏRİN İNSAN HƏYATI VƏ CƏMİYƏTDƏKİ ROLUNDA - İZAHEDƏN FƏLSƏFİ İSTİQAMƏT. |
| 4. | **FUNKSİONALİZM**-CİSMLƏRİ ÖYRƏNİLMƏSİNDƏ BİR YANAŞMA-MÜRƏKKƏB VƏ SİSTEMLİ ŞƏKİLDƏ QURULMUŞ BÜTÖV BİR SİSTEM. |
| 5. | **STRUKTURALİZM**-İCTİMAİ ELMLƏRİN FƏNLƏRARASI İSTİQAMƏTDİR – QURULUŞLARIN(STRUKTURLARIN) ÖYRƏNİLMƏSİ CƏMİYYƏT VƏ MƏDƏNİYYƏTİN TƏHLİLİ ÜCÜN LİNQVİSTİK MODELLƏRDƏN İSTİFADƏ EDİR. |
| 6. | **SİMVOLİZM**-SİMVOL (RƏMZ) ÖZÜNDƏ MƏLUMAT TOPLAYIR, ZAMAN VƏ MƏKAN DAXİLİNDƏ ÖTÜRÜR VƏ İNSAN MƏDƏNİYYƏTİNİN GENİŞ ALƏMİNDƏ SAXLAYIR. **MƏDNİYYƏT KODU**- MƏDƏNİYYƏTİNİN SİMVOLİK(RƏMZİ) DİLİDİR.**SEMİOTİKA** VƏ YA **SEMİOLOGİYA**- İŞARƏ VƏ İŞARƏ SİSTEMLƏRİNİN XÜSUSİYYƏTLƏRİNİ ARAŞDIRAN BİR ELMDİR . |

**ARXAİK İBTİDAİ MƏNƏVİ MƏDƏNİYƏTİN FORMALARI:**

| | |
|---|---|
| 1. | **TOTEMİZM**-DİNİN ƏN ERKƏN FORMALARINDAN BİRİ-İNSAN VƏ MÜƏYYƏN HEYVAN VƏ YA BİTKİ ARASINDA XÜSUSİ BİR MİSTİK ƏLAQƏSİ (*FRATRİAL QARDAŞLAR*). |
| 2 | **ANİMİZM**- İBTİDAİ XALQLARIN-HƏR ŞEYİN RUHU,RUHUN VARLIĞLI HAQQINDA ELMİ ÖNCƏKİ FİKİR(*E.B. TEYLOR(1832-1917) "İBTİDAİ MƏDƏNİYYƏT*"). |
| 3. | **MAGİYA**-NÖVLƏRİ:ZİYANKAR,HƏRBİ,CİNSİ(MƏHƏBBƏT),SAĞLAMLIQ,QORUYUCU, METEOROLOJİ (*A.FİRKANDT(1867-1953*). |
| 3. | **FETİŞİZM**- İBTİDAİ QƏBİLƏLƏRDƏ CANSIZ CİSİMLƏRƏ (BÜT,FETİŞ ƏŞYASI) İBADƏT ETMƏK. |
| 4. | **MİFOLOGİYA** |
| 5. | **PETROQLİF**-"PETROS" (πέτρος- YUNAN)-DAŞ;"GLİPHİ"- (γλυφή YUNAN) –KƏSMƏ QAYA TƏSVİRLƏRİ; ***TUNC DÖVRÜ-*** QOBUSTAN QAYA ÜSTÜ YAZILAR |

**MİFİN TRASFORMASİYASI:**

| | |
|---|---|
| ***1*** | ***DİN*** |
| ***2*** | ***FƏLSƏFƏ, KULTUROLOGIYA (SİMVOLİZM, EZOTERİKA VƏ B.)*** |
| ***3*** | ***İNCƏSƏNƏT*** |

**MƏDƏNİ İNKİŞAFIN ƏSASLARI:**

| **ƏSAS AMİLLƏR:** |
|---|
| ***1.TƏBİİ  COĞRAFİ  ŞARAİT*** |
| ***2.SOSİAL  MÜHİT*** |
| ***3.TARİXİ  ŞƏRAİT*** |
| ***4.BİOLOJİ  GÖSTƏRİCİ,<br>GENETİK KOD*** |
| ***5.MƏDƏNİYYƏTİN VƏ İRSİN  QORUNMASI*** |

**MƏDƏNİYYƏTİN  FUNKSİYALARI**:

| | |
|---|---|
| 1. | **Mühütə uyğunlaşma funksiya** |
| 2. | **Dərketmə  fumksiya** |
| 3. | **İnformativ funksiya** |
| 4. | **Kommunikativ funksiya** |
| 5. | **Requlativ (normativ) funksiya** |
| 6. | **Aksioloji (dəyərlər) funksiya** |
| 7. | **İnsan qruplarının  inteqrasiya funksiyası** |
| 8. | **Sosiallaşdırma(humanistləşmə) funksiya** |

**MƏDƏNİYYƏTİN XÜSUSİYƏTLƏRİ:**

| **MƏDƏNİYYƏT FOMACA-MİLLİ** | **MƏDƏNİYYƏT MƏZMUNCA-BEYNƏLMİLƏL,ÜMÜMBƏŞƏRİ** |
|---|---|
| **1.ARXAİK** | **1.HUMANİST XARAKTER** |
| **2.ANTROPOLOJİLİK** | **2.EKSPRESSİV XARAKTER** |
| **3.XALQÇILIQ** | **3.TARİXƏN KEÇİCİ** |
| **4.İNTELLEKTUALLIQ** | **4.VARİSLİK** |
| **5.ETİKLİK** | **5.BÖLÜNMƏZLİK** |
| **6.ƏNƏNƏVİLİK** | **6.FASİLƏSİZLİK** |
| **7.NOVASİYALIQ** | **7.SİNFİ XARAKTER** |

**MƏNƏVİ MƏDƏNİYYƏTİN TƏRKİBİ**:

| ***MƏNƏVİ MƏDƏNİYYƏT İBARƏTDİR:*** |
|---|
| ***1.İNTELLEKTUAL-ELM*** |
| ***2.ƏXLAQİ-MƏNƏVİYYƏT*** |
| ***3.BƏDİİ MƏDƏNİYYƏT-İNCƏSƏNƏT*** |
| ***4.DİNİ*** |
| ***5.HÜQUQİ*** |
| ***6.VƏ S.SUBKULTURLARDAN*** |

**BƏDİİ MƏDƏNİYYƏT VƏ MƏDƏNİ İRS:**

| | |
|---|---|
| 1 | ***ƏDƏBİYYAT VƏ PUBLİSİSTİKA*** |
| 2 | ***MUSİQİ İNCƏSƏNƏTİ*** |
| 3 | ***TƏSVİRİ İNCƏSƏNƏT*** |
| 4 | ***FOLKLOR SƏNƏTİ*** |
| 5 | ***DEKORATİV-TƏDBİQİ İNCƏSƏNƏT*** |
| 6 | ***TEATR SƏNƏTİ*** |
| 7 | ***KİNO SƏNƏTİ*** |
| 8 | ***MEMARLIQ İNCƏSƏNƏTİ*** |
| 9 | ***SİRK İNCƏSƏNƏTİ*** |
| 10 | ***ZƏRGARLIQ SƏNƏTİ*** |
| 11 | ***XALÇA SƏNƏTİ*** |
| 12 | ***DİZAYN*** |
| 13 | ***MƏDƏNİ ABİDƏLƏR:ŞİFAHİ,YAZILI,MUSİQİ,ƏDƏBİ,MADDİ*** |

## MƏNƏVİ VƏ MADDİ MƏDƏNİYYƏT:

| **MƏNƏVİ MƏDƏNİYYƏT:** | **MADDİ MƏDƏNİYYƏT:** |
|---|---|
| 1.***ƏQLİ***-ŞÜÜRUN BÜTÜN SAHƏLƏRİ;<br>2.***MƏNƏVİ*** | ***1.İQTİSADİYYƏT***-ƏMƏK VASİTƏLƏRİ,TEXNOLOGİYALAR;<br>2.***MADDİ ƏBİDƏLƏR;***<br>3.***MADDİ NEMƏTLƏR***-MƏİŞƏT ƏŞYALARI,NƏQLİYYƏT VASİTƏLƏRİ VƏ S. |
| **MƏNƏVİ MƏDƏNİYYƏTİN KOMPONENTLƏRİ:**<br>**1.Tərbiyyə;**<br>**2.Dövlət;**<br>**3.Mənəvi həyat;**<br>**4.Mənəvi varlıq;**<br>**5.İdeologiya;**<br>**6.İnformasiya və mətbuat;**<br>**7.Dil;**<br>**8.Mədəni irs;**<br>**9.Mədəni dəyərlər;**<br>**10.Ədəbiyyat;**<br>**11.Beynəlxalq əlaqələr;**<br>**12.Əxlaq;**<br>**13.Elm;**<br>**14.Həyat tərzi;**<br>**15.Təhsil;**<br>**16.İçtimai əlaqələr;**<br>**17.Cəmiyyət;**<br>**18.Ənənələr;**<br>**19.Adətlər;**<br>**20. Təşkilatçılıq(Mütşəkillik);**<br>**21.Siyasət;**<br>**22.Qanun və qanunvericilik;**<br>**23.Publisistika;**<br>**24.Din;**<br>**25.İdarəçilik;**<br>**26.İncəsənət.** | **MADDİ MƏDƏNİYYƏTİN KOMPONENTLƏRİ:**<br>**1.Şəhər;**<br>**2.Yaşayış;**<br>**3.Maddi fəaliyyət;**<br>**4. Həyatı dəstəkləmə maddi sistemi;**<br>**5. Avadanlıq və alətlər;**<br>**6. Qeyim;**<br>**7. Əmək vasitələri və əşyaları;**<br>**8. Maddi mədəniyyətin abidələri;**<br>**9. Qida; yemək;**<br>**10.Məişət əşyaları;**<br>**11. Sənaye;**<br>**12. İstehsalat fəaliyyətinin nəticələri;**<br>**13. Kənd təsərrüfatı;**<br>**14. İstehsal vasitələri;**<br>**15. Texnika, cihaz, maşın;**<br>**16.Ticarət;**<br>**17.Nəqliyyət;**<br>**18.Fiziki mədəniyyət;**<br>**19. İqtisadiyyat;** |

**MƏDƏNİYYƏTİN ETNO-MİLLİ XÜSUSİYYƏTLƏRİ:**

| | |
|---|---|
| 1 | ***İŞARƏ SİSTEMİ(DİL)*** |
| 2 | ***MİLLİ PSİXOLOGİYA*** |
| 3 | ***ÖZÜNÜDƏRKETMƏ*** |
| 4 | ***MENTALİTET*** |
| 5 | ***MƏDƏNİ DƏYƏRLƏR SİSTEMİ*** |
| 6 | ***HƏYAT TƏRZİ: ADƏTLƏR,ƏNƏNƏLƏR*** |
| 7 | ***ƏNƏNVİ DAVRANIŞ NORMALARI*** |
| 8 | ***GERÇƏKLİKDƏ QAZANILAN MƏNƏVİ TƏCRÜBƏ*** |
| 9 | ***MİLLİ İNCƏSƏNƏT*** |
| 10 | ***MİLLİ İRS*** |
| 11 | ***FOLKLOR*** |
| 12 | ***İNANCLAR, DİNİ BAXIŞLAR*** |

**MƏDƏNİ DƏYƏRLƏRİN SİSTEMİ:**

| | |
|---|---|
| 1 | ***İNTELLEKTUAL*** |
| 2 | ***MƏNƏVİ*** |
| 3 | ***ESTETİK*** |
| 4 | ***SİYASİ*** |
| 5 | ***MİLLİ-ETNİK*** |
| 6 | ***DİNİ*** |
| 7 | ***BƏDİİ*** |
| 8 | ***HÜQUQİ*** |
| 9 | ***MADDİ*** |

## MƏDƏNİYYƏTİN SOSİAL İNSTİTUTLARI:

| | |
|---|---|
| 1 | ***AİLƏ*** |
| 2 | ***HƏYAT TƏRSİ*** |
| 3 | ***İNFORMASİYA*** |
| 4 | ***TƏHSİL*** |
| 5 | ***TƏRBİYYƏ*** |
| 6 | ***ADƏT VƏ ƏNƏNƏLƏR*** |
| 7 | ***İNCƏSƏNƏT VƏ ƏDƏBİYYAT*** |
| 8 | ***TƏŞKİLETMƏ VƏ İDARƏETMƏ*** |
| 9 | ***HÜQUQ*** |
| 10 | ***İDEOLOGİYA*** |
| 11 | ***DİN VƏ ETİKA*** |
| 12 | ***İQTİSADİYYAT VƏ MALİYYƏ*** |
| 13 | ***ELM VƏ TEXNOLOGİYA*** |
| 14 | ***HÜQUQ MUHAFİZƏSİ ORQANLARI*** |
| 15 | ***MÜDAFİƏ*** |
| 16 | ***NƏQLİYYƏT*** |
| 17 | ***KOMMUNAL SİSTEMLƏRİ*** |
| 18 | ***RABİTƏ*** |
| 19 | ***EKOLOGİYA*** |
| 20 | ***SƏHİYYƏ*** |

## MƏDƏNİYYƏT VƏ ANTİ-MƏDƏNİYYƏT

| | |
|---|---|
| 1. **Mədəniyyət -** | bəşəriyyətin yaradılması, inkişafı, tərəqqisi ilə xarakterizə olunan mənəvi, müsbət və reallaşdırıla bilən bir təcrübədir. |
| 2. **Anti-mədəniyyət -** | müharibələr, məhvedici qüvvə, xəstəlik, aclıq kimi dağıdıcı proseslərlə xarakterizə olunan mənəviyyata qarşı yönəlmiş hadisələr və proseslər. |

## MULTİKULTURALİZM ANLAYIŞI

**Multikulturalizm** — cox mədənilik, bir çox fərqli mədəniyyətin birgə yaşadığı cəmiyyəti təyin edən sözdür. O, ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəliffliklərinin qorunması, inkişafı və harmonizasiyasına, həmçinin azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir. Humanist və demokratik nəzəriyyə yaxud ideologiya olaraq multikulturalizm, tolerantlığın təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil. **Azərbaycanda** bir cox xalqlar yaşayir, onların dili, dini, ənənələri yaşadılır. İslam dini ilə bərabər yahudi, xristian dinləri və onların icmaları, dini məbədləri qorunur, saxlanılır və bu günə qədər mövcuddur.

**Azərbaycanda tədqiqatlar:**


**1.Kamal Abdulla və b.**Multikulturalizma giriş : Ali Məktəblər üçün dərslik. – Bakı: Şərq Qərb, 2019.

**2. İskəndərli, C**. Azərbaycanda qeyri-ənənəvi dinlər və təriqətlər /Cabir İsgəndərli.- Bakı: Apostroff.- MMC, 2011.- 110 s

**3. Orucov, H.** Azərbaycanda din ən qədim dövrdən bu günədək /H.Orucov; red. G. Ġsmayilov, C.Bəhramov, E.Cabbarov; rəssam A.Hüseynov.- Bakı: Ġdrak ĠB, 2012.- 384 s

**4.Mirzəzadə, R.** Multikulturalizm siyasəti və Şərq-Qərb müxtəlifliyi: Gender, din və mənəviyyat /Rəna Mirzəzadə; elmi məsl. Ġ.Məmmədzadə; AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İn-tu.- Bakı: Təknur, 2012.- 160 s.

**5. Mir-BağırzadəS. və b.** Şərq və Qərb kontekstində müasir Azərbaycan və multikulturalizm.-
Bakı:Azərbaycan respublikasının prezidenti yanındaElmin inkişaf fondu, 2018,- S.168.

# MENTALİTET ANLAYIŞI

<table>
<tr>
<td>Mədəni mentalitet- milli mədəniyyətin inkişafında müxtəlif tarixi dövrləri özündə birləşdirən, bir çox xalq nəslinin şüur və davranışlarında tarixən və sosial baxımdan möhkəmlənən dərin mədəniyyət quruluşlarıdır.</td>
<td>Mentalilet termini ilk istifadə edən etnoloq Levy-Bruhl olmuşdur. O onu həyatda müşahidə etdiyi ibtidai tayfalara tətbiq edirdi. Levy-Bruhl tədqiqatında ibtidai insan və müasir insanın düşüncə tərzi ilə ziddiyyətini qeyd etdi, buna görə də qəbilələrin xüsusi düşüncə tərzini "mentalitet" termini ilə təyin etdi. Ancaq bu termin "Annallar"Fransız tarixi Məktəbinin fəaliyyəti sayəsində kütlələrə təqdim olundu. Onun nümayəndələri Fransa kralı ilə adi bir əsgəri birləşdirən mentaliteti (zehniyyəti) ilə başa düşülürdü, yəni <u>mentalitet (zehniyyət ) fərdi olaraq deyil, kollektiv bir xüsusiyyət olaraq ortaya çıxır.</u> Tədricən, termin elmi ictimaiyyətdən publisistikaya keçdi.<br><br>Azərbaycanda tədqiqatlar:<br><br>1.Vahid Ömərov. Azərbaycançılıq və Azərbaycan mentaliteti,-Səs.- 2012.- 7 fevral.- S. 10.<br>2 Hüseynov İ. H. Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti. (monoqrafiya) Azərbaycan dilində. Red. N. Şəmsizadə, rəs.E.Nəzərov, B.: Mars-Print, 2002, 305s.</td>
</tr>
</table>

## QLOBALLAŞMA ANLAYIŞI

| | |
|---|---|
| **Qloballaşma** - ümumdünyaləşmə prosesidir, həmçinin sosial həyatda müxtəlif sahələrində bütün Yer kürəsi üçün ortaq olan quruluş, əlaqə və münasibələrin yaradılmasıdır. | **Qloballaşma** — (fr. *qlobal* – ümumi, lat. *qlobus* – Yer kürəsi) Elmi ədəbiyyatlarda XX əsrin ikinci yarısından sonra dünya miqyasında baş verən fundamental prosesləri izah etmək üçün "qloballaşma" terminindən ilk dəfə 1967-ci ildə istifadə edildiyi bildirilir. Müasir anlamda termin kimi isə "qloballaşma" 1980-ci illərin ortalarında dövriyyəyə buraxılmış və intelektual elita tərəfindən qəbul olunmuşdur. ***Qloballaşma termininin meydana gəlməsini*** **professor Teodor Levitin** adı ilə bağlayırlar. O, ***1983-cü*** ildə ***"Harvard biznes revyu" jurnalında çap etdirdiyi "Bazarların qloballaşması"*** məqaləsində bu terminlə transmilli korporasiyaların istehsal etdiyi ayrı-ayrı məhsulların bir-birinə qovuşması fenomenini ifadə etmişdir. ***"Qloballaşma" anlayışının akademik status alaraq geniş yayılmasında amerikalı sosioloq R.Robertsonun rolu xüsusi qeyd olunur.*** <br><br> Qloballaşmanın ilk dəqiq işlənmiş nəzəri modelləri 1980-1990-cı illərdə ortaya qoyulmuşdur. ***Azərbaycan alimlərindən*** professorlar Ağayar Şükürov və Rövşən Mustafayev qloballaşmanın müxtəlif |

| | |
|---|---|
| | aspektlərinə dair tədqiqat əsərləri yazmışlar:<br><br>1. Şükürov Ağayar Fəlsəfə və Qloballaşma – 2002.<br>2. Şükürov A. Qloballaşma: mahiyyəti, perspektivləri. Bakı, 2011.<br>3. Şükürov A.M., Qloballaşmış cəmiyyətlər: dünən, bu gün və sabah, Bakı—2006.<br>4.Mustafayev Rovşən “Qloballaşma.Yeni qeopolitik düsturları” –Qarmış,iyul,2002 il. |

# GENDER ANLAYIŞI

| | |
|---|---|
| **Gender** - cinslər arası sosial əmək bölgüsü, ailədəki rol, sosial məkanın cinsə görə bölünməsi. | **Gender-** (İng. Gender - "cins") - kişilik və qadınlıq ilə əlaqəli bir sıra xüsusiyyətlər (bioloji yox-***sosial factor kimi***). Kontekstdən asılı olaraq, bu cür xüsusiyyətlər sosial strukturlar (xüsusən də, cinsiyyət və digər sosial rollar) və ya gender şəxsiyyətini ifadə edə bilər. Bəzi hallarda "gender" anlayışı səhvən "cinsi" anlayışının sinonimi kimi istifadə olunur, baxmayaraq ki, əvvəlcə "gender" termini əksinə olaraq tətbiq edilmişdir.<br>"Gender" anlayışı feminist nəzəriyyə və gender tədqiqatlarının inkişafı sayəsində geniş yayılmışdır. Bir sıra nümayəndələri (əsasən feminist müəlliflər: **Coan Huber "Gender strasifikasiyası nəzəriyyəsi"** ***Gender stratifikasiyası sosial stratifikasiyanın struktur bölməsi, xüsusi bir sosiomədəni kəsimi olduğundan və onun əksər göstəricilərinə və xarakteristikalarına malik olduğundan onu təfsilatı ilə tədqiq etməkdən ötrü hər şeydən əvvəl kişi və qadının özünü qida, geyim və sığınacaqla təmin etmək üçün hansı əmək alətlərinin lazım olduğu və müvafiq olaraq bunu necə təşkil ediləcəyi araşdırılır. Bundan başqa, iqlim şəraiti, torpağın vəziyyəti və insanların həyatına təsir göstərən digər ekoloji göstəricilər də nəzərə alınmalıdır. Həmçinin belə yanaşmanın əmək fəaliyyəti çərçivəsində baş verən proseslərin sosial dəyişikliklərlə, sərt*** |

| | |
|---|---|
| | ***determinasiya (yəni- bir şeyin görünüşünün və ya təzahürünün səbəblərini müəyyənləşdirmək ) ilə bağlı olmadığını unutmaq olmaz.*** Əmək alətləri və texnologiyalar müəyyən hadisələr üçün yalnız müəyyən şərait yaradır, lakin onları heç də mütləq etmir. Eyni zamanda antropoloji ədəbiyyatda həmin yanaşma təkamül adlandırılır, çünki əmək alətlərinin inkişafı və təkmilləşməsi istehsalın və istehlakın inkişafına səbəb olur. ***Genderin sosial qurulma prosesinin təhlili göstərdi ki, onun əsasında dayanan gender stratifikasiyası və gender bərabərsizliyi cəmiyyətin həyat fəaliyyətinin ayrı-ayrı sahələrində özünü büruzə verərək bir sıra norma, dəyərlər, stereotip və göstərişləri formalaşdırır ki, onlar da öz növbəsində yayıldıqca və təsdiqini tapdıqca mövcud gender sisteminin istehsalına dəstək verir*.) insanlar arasındakı fərqlərin təbii mənşəyini şübhə altına alır və onları sosial proseslərlə izah edirlər, o sosial konstruktivizm nəzəriyyəsinə əsaslanır. Beləliklə, "gender" anlayışı "biologiyanın taleyi kimi" gündəlik düşüncələrini tənqid etmək üçün nəzərdə tutulmuşdur və **gender bərabərliyi ideologiyasına** aiddir .<br>Bir çox mənbələr cinsi- "sosial cins" olaraq təyin etsə də, **müasir feminist və gender tədqiqatlarında bu anlayış** ***köhnəlmiş hesab olunur***. ***Bioloji cinsin törəməsi kimi cinsiyyət anlayışını tənqid*** |

| | |
|---|---|
| | ***edən müasir tədqiqatlar bu kateqoriyanın hər ikisini bir-biri ilə kompleks qarşılıqlı olan sosial konstruksiyalar hesab edir*.<br><br>**Azərbaycanda tədqiqatlar:**<br><br>**1.Ağayeva Kifayyət** Azərbaycanda gender məsələləri,dərslik,-Bakı,2014,-C.416.<br><br>**2. Mirzəzadə Rəna** «Multikulturalizm siyasəti: Din və Gender Dialoqunda». Bakı - «Təknur»- 2013.168 səh. |

## MƏDƏDNİYYƏT BƏ SİVİLİZASİYA ANLAYIŞI

| | |
|---|---|
| **Mədəniyyət anlayışı** | **Mədəniyyət** - cəmiyyətin intellektual, etik, hüquq, iqtisadi və institusional inkişafını təmin edən yaradıcı prossesdir, bu sistemın zaman və məkanda ənənələri saxlayan və qoruyan - irəliləyən proqressidir(tərəqqidir). Mədəniyyət *təkamül(evolusiya)* prosesi ilə xarakterizə olunur. |
| **İslam mədəniyyəti** | **İslam mədəniyyəti** – müxtəlif mədəniyyətləri yeganə islam dinində birləşdirən tam sistemdir. ***Məhəmməd peyğəmbərin*** və müsəlmanların ***müqəddəs kitabı*** olan – ***Quranın*** əqidələri İspaniyadan Çinə qədər geniş ərazini daxil edən Orta əsrlərin sosial-mədəni inkişafına pozitiv təsir göstərən müsəlman sivilizasiyasının əsas ideologiyasıdır. Müsəlman mədəniyyəti Antik Yunan və Romanın elm və incəsənətini canlandırdı və Antik və Avropa Orta əsrlər arasında bağlayıcı həlqəsi oldu. O, İspaniyadan – Avropa və Latin Amerikaya qədər – dünya mədəniyyətinə təsir göstərdi.<br>***Məhəmməd peyğəmbərin kəlamları***:<br>*1.Elmindən fayda gələn alim min ibadətdən üstündür;*<br>*2.Beşikdən qəbrədək elm axtarışında olun;*<br>3..*Biliklər Çində də olsalar, onu* |

| | |
|---|---|
| | *orada axtarın;*<br>*4..Behişt-anaların ayaqları altındadı;.*<br>*5..İnsanın gözəlliyindən biri də - onun aydın və gözəl danışmasındadır.* |
| **Sivilizasiya anlayışı** | **Sivilizasiya** - tam mədəniyyət sistemini xarakterizə edir, o özündə yazı, dövlətçilik, idarəetmə, elm və təhsil, dini və iqtisadi institutlari və s., həmçinin yüksək texnoloji inkişafı ilə inteqrasiya olunur. Sivilizasiya intellektual və texnoloji mütərəqqi bir sıçrayışa arxalanaraq *inqilabi* bir proses ilə xarakterizə olunur. Daha effektiv olan lokal-tarixi sivilizasiyasların nümunəsi – Qədim Roma, Yunan və başqalarıdır. |
| **İslam sivilizasiyası** | **İslam sivilizasiyası** - mürəkkəb və çox inkişaf etmiş mədəniyyətinə malik olan, həmçinin elm və texnika sahəsində (kənd təsərrüfatı sahəsində texniki nailiyyətlər, irriqasiya sistemi, texniki qurğular: kanalizasiya, dambalar, su qoruqları; metalların emalı, kağız, pambıq, parça istehsalı və s.) böyük kəşflərilə xarakterizə olan İslam Ərəb xüləfəti adlanan ümumi dil, Quran yazıldığı – ərəb dili ilə birləşən qüdrətli, nəhəng dövlət qurmuşdur.<br>Hər sivilizasiya hamı üçün vacib ola bilən dəyərləri |

| | |
|---|---|
| | müəyyənləşdirir, özünü ona aid edir. İslam sivilizasiyasının əsas bağlayıcı qüvvəsi islam dinidir. İslam sivilizasiyası iri müstəqil dövlətlərin çoxunda inkişaf edirdi. Quran vəhləri Məhəmmədin dilindən elan ediləndən sonra və əsrlər boyu dəyişilməz qalan, islam aləminin nümayəndələrini birləşdirən yaranan Islam sivilizasiyası coğrafi baxımdan olduqca müxtəlif olan regionları birləşdirdi. İslam tərəfindən yaranan sivilizasiya zaman və məkanda dəyişilməz oldu. Əsasən ayrı-ayrı regionlarda bərkidilmiş bu cəmiyyət həm də yerli mədəniyyətlər olan ozünə xas intellektual yaradıcılıqda inkişaf edərək, özünü əks etdirirdi və islam xarakteri zaman və məkanda məskan salmağa heç də mane olmurdu. Osman dövrünün türk islamı, Şirvanşahlar, Səfəvilər sülalər dövründə Azərbaycan islamı və ya böyük Moqolların Hind islamı özünü orijinal törəmə kimi göstərdi, burada da müsəlman dinin prioriteti digər spesifik cərəyanların olmasına mane olmurdu. Eyni zamanda dil ümumiliyi ilə birləşən bütün bu mədəniyyətlər ayrı ola bilməzdi. Bu sivilizasiya müxtəlif aspektlərdə açılır: bir tərəfdən, o, komfort, hətta təmtəraq təmin edən böyük texniki və maddi nailiyyətlərlə xarakterizə olunur, digər tərəfdən – bizə bu |

| | |
|---|---|
| | sivilizasiyanın dini və intellektual səmtləşməsi yolu açılır, buna görə də bütün cəmiyyətin mentalitetliyini təsvir etmək mümkündür.<br>Əvvəl Əməvilər, sonra isə Abbasilər və Fatimilər himayəsi altında inkiçaf edən islamın triumfu ilə birlikdə böyüyən ilk imperiya ərəb-müsəlman islam sivilizasiyası terminin ən ümumi mənasında “klassik” adlandırıla bilər. Təkcə keçid dövrü ola bilən, bu dövr dəyərli nümunə modeli olaraq, Quran ehkamları ilə törənən ictimai tipin ilk və mükəmməl mücəmməsi kimi qəbul olunurdu və bununla belə zaman çərçivəsindən çıxan ***dahi alimləri yaradan xüsusi şərtlərə görə bu cəmiyyət Orta əsrlər dövrün mədəniyyətinin inkişafının ən yüksək zirvəsinə çatdı***.<br>Müsəlman mədəniyyətə müxtəlif xalqların öz zamanına görə qədim və müasir mədəni ənənələrindən ibarət olan ***sinkretik mədəniyyət kimi baxılır***. ***Dünyanın əsas qanunlarının əks edən müsəlmanların müqəddəs kitabı olan*** **Quran** – ***böyük təsir göstərib.*** |

# MARGİNAL MƏDƏNİYYƏTİ

| | |
|---|---|
| **Marginal mədəniyyət** - lokal (yerli) mədəniyyətlərin (subkulturaların)toplusudur, onların əsas prinsipləri - dominant mədəniyyət kanonu baxımından yad (və ya düşmən kimi) qiymətləndirilir. | **Marginalizm** (fr. *Marginalisme*) — XIX əsrin 70-ci illərində kapitalizmin iqtisad elmində subyektiv-psixoloji istiqamət meydana gəlmişdir. Marginalizm fransız sözü olub, mənası *"hədd"* deməkdir. ***Marginalizm iqtisadi hadisə və proseslərin təhlilində*** son kəmiyyətə, ***həddə üstünlük verir, faydalılıq həddi, məhsuldarlıq həddi, gəlirlilik həddi, məsrəf həddi və s. bu kimi iqtisadi kateqoriyaları öz tədqiqatının mərkəzində saxlayır***. ***Marginalizmin ideyalarının ilkin yaradıcıları və tədqiqatçıları Avstriyanın paytaxtı*** **Vyana Universitetinin professorları Karl Menger, Yevgeni Bem-Baverk və Fridrix Vizer** ***olmuşlar***. Məhz həmin səbəbdəndir ki, bu cərəyanın çox mühüm bir hissəsi hazırda ***Avstriya məktəbi*** adı ilə məşhurdur. Bununla yanaşı həmin məktəbin ***İngiltərədə Uilyam Stenli Cevons, İsveçrədə Leon Valras, Fransada Şarl Jid*** və s. kimi görkəmli tərəfdarları və davamçıları olmuşlar. |

## SİVİLİZASİYALARIN ƏLAMƏTLƏRİ:

| | |
|---|---|
| 1 | **DİL-YAZILAR** |
| 2 | ŞƏHƏRLƏR |
| 3 | İNCƏSƏNƏT,SƏNƏTKARLIQ,İCTİMAİ –MONUMENTAL ABİDƏLƏR |
| 4 | ELM |
| 5 | DÖVLƏTLÇİLİK |
| 6 | VERGİLƏR |
| 7 | **TEXNİKİ PROGRESS(TƏRƏQQİ)**- İNTENSİV İQTİSADİYYAT,TİCƏRƏT |
| 8 | ZADƏGAN SİNİFLƏRİ |

## ELİTAR VƏ KÜTLƏVİ MƏDƏNİYYƏT

| | |
|---|---|
| **Elitar mədəniyyət -** cəmiyyətin imtiyazlı qruplarının mədəniyyətidir və fundamental yaxınlıq, mənəvi aristokratiya və dəyər-semantik özünütəminlik ilə xarakterizə olunur. ***Elitar mədəniyyət*** - qavrayış şüuruna təsir növü ilə *kütləvi mədəniyyətə qarşı olan*, subyektiv xüsusiyyətlərini qoruyan və məna verən bir funksiya təmin edən **yüksək mədəniyyətdir**. | **Elitar, yüksək mədəniyyətin *mövzusu* bir şəxsdir** - azad, yaradıcı, şüurlu işləri həyata keçirməyə qadirdir. Bu mədəniyyətin əsərləri tamaşaçıların genişliyindən asılı olmayaraq hər zaman şəxsən zənginləşir və şəxsi qavrayış üçün hazırlanır, buna görə ***Nizami, Füzuli, Çingiz Abdullayev,Tolstoy, Dostoyevski, Şekspirin əsərlərinin*** geniş yayılması və milyonlarla nüsxəsi nəinki əhəmiyyətini azaltmır, əksinə, mənəvi dəyərlərin daha geniş yayılmasına kömək edir. Bu mənada ***elitar mədəniyyətin mövzusu elitanın nümayəndəsidir***. |
| **Kütləvi mədəniyyət** - müəyyən bir cəmiyyətdə populyar bir təbəqə arasında populyarlaşan və | **Kütləvi mədəniyyətin *məqsədi*** - sənaye və post-sənaye cəmiyyətində insanda *asudə vaxtı stressi çixartmaq* |

| | |
|---|---|
| üstünlük təşkil edən mədəniyyətdir. ***Buraya həyat, əyləncə (idman, pop - musiqisi, kütləvi ədəbiyyat), media və s. kimi hadisələr daxil ola bilər***. Kütləvi mədəniyyət xalqın zövqlərini və ya mənəvi axtarışlarını ifadə etmir və 20-ci əsrin ortalarında media (radio, çap, televiziya) dünyanın əksər ölkələrinə bütün sosial sahələrin nümayəndələri üçün əlçatan və nüfuzlu oldu. Kütləvi mədəniyyət - *beynəlxalq* və *milli* ola bilər. Pop - musiqisi bunun bariz nümunəsidir: təhsil səviyyəsindən asılı olmayaraq, hər yaşda, əhalinin bütün təbəqələrində başa düşüləndir və əlçatandır.<br>***Sosial baxımdan*** **kütləvi mədəniyyət "orta sinif" adlanan** ***yeni bir sosial sistem meydana gətirir.*** | və izləyicidə, dinləyicidə, oxucuda istehlak şüurunu stimullaşdırmaq, insanda(cəmiyyətdə) bu mədəniyyətin passiv qeyri-tənqidi qavrayışın xüsusi bir növünü təşkil etmək.<br>**XX əsrin II yarısından** *kütləvi kommunikasiya* istehsalın yeni üsullarının, mədəniyyətin yayılma və istehlakının nəticəsi məhsulu kimi tərəqqi etməyə başlayır. Kütləvi mədəniyyətinABŞ-da məzmunu, bir qayda olaraq aşağı, bəzən isə, orta səviyyədə olur. SSRİ məkanda **kütləvi mədəniyyət** ***xalq mədəniyyətini*** təbliğ edirdi. Qeyd emək lazımdır ki, **kütləvi mədəniyyət** ***xalq mədəniyyətindən*** fərqlənir. ***Xalq mədəniyyətində*** də yüksək sənət nümayiş etdirməyən nümunələrə də rast gəlmək olar. Lakin bu saxta xüsusiyyətlərlə örtülmür, xalq mədəniyyəti ilk növbədə öz səmimiliyi, həyati mənası ilə seçilir. O, sırf xalqın özü tərəfindən yaranır və kökü çox-çox qədimlərə gedir çıxır. Bu mədəniyyət xalqın istək və arzusunu, xarakterini ifadə edir. Hətta |

| | |
|---|---|
| | professionallar öz yaradıcılığında məhz xalq sənətinə müraciət edir, bunu özləri üçün müqəddəs mənbə hesab edirlər. ***Milli professional musiqimizin banisi Ü.Hacıbəyov, ilk milli dramaturqumuz M.F.Axundov, dahi C.Məmmədquluzadə və b.*** yaradıcılıqlarında ***xalq mədəniyyətindən*** *səmərəli şəkildə bəhrələnmiş və bunu özlərindən sonrakı varislərinə də tövsiyə etmişlər.*<br>Lakin **kütləvi mədəniyyət** *xalq tərəfindən deyil*, ***xalq üçün yaradılır.*** Qərbdə yaradıcılığın ən parlaq və yüksək səviyyəsi «Kitç» adlanır. **Kütləvi mədəniyyət** - ***unikal sənətin təqlidçisi kimi də tanınır***. O, ***populyarlığa***, ***reklama*** *çox yaxındır.* **Kütləvi mədəniyyətin əsas forma və növləri**: ***müzikl, komiks; illüstrativ, reklam və məlumat-informasiya jurnalları; videoyazı, videoklip, videooyun və başqa kütləvi-informativ istehsalın məhsuludur.*** |

## SUBMƏDƏNİYYƏT VƏ KONTRMƏDƏNİYYƏT:

| | |
|---|---|
| **Submədəniyyət** – bütöv lokal mədəniyyətlərin (etnik, milli, sosial) bir-birindən bu və ya digər cəhətlərinin özünəməxsusluğu, spesifikliyi ilə fərqlənən iri tərkib hissələrinə deyilir. | Adətən, submədəniyyətlər bütöv bir mədəniyyətin yayılma arealının ətraflarında yerləşir ki, bu da oradakı spesifik şəraitlə əlaqədar olur. Submədəniyyətlərin mövcudluğu onunla əlaqədardır ki, mədəniyyət, cəmiyyət tamamilə yekcins ola bilməz. Mərkəzi nüvədən başqa, o özündə mədəniyyətin spesifik əlamətləri olan digər qrupları da birləşdirir. Bu arada həmin qrupların mədəni elementlərinin başlıca hissəsi əsas mədəniyyətə yaxın və ya onunla identik olur. ***Submədəniyyətlər etnoqrafik, konfessiya, peşə, funksional əlamətlər üzrə, yaş və sosial spesifika əsasında formalaşır***. Məsələn, gənclər və təqaüdçülərin submədəniyyəti yaş fərqləri ilə əlaqədar meydana çıxır. Submədəniyyətlər öz qarşısında hakim mədəniyyəti dəyişdirmək məqsədini qoymur. Onlar hakim mədəniyyətə özünəməxsus formada uyğunlaşır. |
| Mədəniyyətin hakim nümunələrini tamamilə inkar edən elementləri də onun ayrılmaz hissəsini təşkl edir, bu və ya digər mədəniyyətin | **Kontrmədəniyyət** termini ***Qərb mədəniyyətində 1960-cı ildə meydana çıxmışdır. Onu ABŞ sosioloqu*** **Teodor Rozzak** ***elmi dövriyyəyə daxil etmişdir***. Lakin |

| | |
|---|---|
| əsasında duran fundamental prinsiplərə qarşı çıxan belə sosiomədəni meylləri - **kontrmədəniyyət adlandırırlar**. | kontrmədəniyyətin meydana çıxmasını XX əsrin spesifik hadisəsi kimi qiymətləndirmək düzgün olmazdı. ***Dünya mədəniyyətində hakim mədəniyyətə qarşıdurma prosesi, yeni dəyərlərin yaranması daimi baş verir***. ***Məsələn, Roma imperiyasında xristianlıq, İntibah dövründə dünyəvi mədəniyyət, Maarifçilik dövrünün sonunda romantizm əslində kontrmədəniyyət kimi meydana çıxmışdı. İstənilən*** **yeni mədəniyyət** ***əslində*** **əvvəlki dövrün mədəniyyətinin böhranının** ***dərk olunması nəticəsində yaranır.*** |
| **Submədəniyyət və Kontrmədəniyyətin fərqləri:** | **Submədəniyyətlər** öz qarşısında hakim mədəniyyəti dəyişdirmək məqsədini qoymur. Onlar hakim mədəniyyətə özünəməxsus formada uyğunlaşır. ***Məhz bununla submədəniyyət dünyanı dəyişdirməyə can atan kontrmədəniyyətdən fərqlənir.*** |

## MƏDƏNİYYƏTİN YAYILMA SİSTEMİ:

| | |
|---|---|
| **TƏHSİL:** | Məktəbəqədər təhsil;<br>Məktəblər(orta və ali) və s. |
| **KİV**(***K****ütləvi* ***i****nformasiya* ***v****asitələri*): | TV, RADİO,<br>İNTERNET(Google-ensiklopedik,informatik saytlar, Youtube, Sosial şəbəkələr (*Facebook* və b.) |
| **MƏDƏNİ MÜƏSSİSƏLƏR:** | Muzeylər, kitabxanalar, arxivlər ,sərgi salonlar və b. |

### Mənəvi dəyərlərin yayılma dərəcələri:

| | |
|---|---|
| 1 | ***Ümumbəşəri (zaman, məkan çərçivəsində);*** |
| 2 | ***Milli;*** |
| 3 | ***Sinfi-təbəqə;*** |
| 4 | ***Qrup-lokal;*** |
| 5 | ***Ailəvi;*** |
| 6 | ***Fərdi-şəxsi .*** |

**<u>Mədəni irs və varislik</u> vəhdətdə olan <u>iki kateqoriya kimi</u> bir sıra ümumi cəhətlərə malikdir. Bunlar aşağıdakılardır**:

| | |
|---|---|
| 1 | Mədəniyyətin inkişafının ən ilkin çağlarında onun sinkretizmi, təsnif olunmaması, onların «elmlərin elmi» sayılan fəlsəfəyə aidliyi; |
| 2 | Müxtəlif dövr və xalqlarda, böyük mübahisəyə səbəb olan əbədi mövzuların (materializm ilə idealizmin mübarizəsi, şüurun həyata münasibəti, sosial ədalətlilik ideyaları və s.) nəsildən nəslə ötürülməsi; |
| 3 | Mədəni irsin ardıcıl toplanması və beynəlmiləlləşməsi. Onun təzahürü hər bir nəslin mədəni irsə yeni nəyinsə əlavə edilməsi ilə müəyyənləşir. Bu irs yazı, kitab nəşri, mətbuat, nəqliyyat və kütləvi informasiya vasitələrinin inkişafı nəticəsində ümumbəşəri xarakter kəsb edir; |
| 4 | Bəşəriyyətin son yüzilliklərdə kommunikasiya imkanlarının sürətli artımı əldə edilən mədəni irsin varisliyini daha da inkişaf etdirir. Məsələn, fotoqrafiyanın, video, audio, kino və s. köməkliyi ilə ötən tarixi dövrlərin mədəniyyəti, mədəni irsi haqqında ətraflı məlumat və bilik əldə etmək olur; |
| 5 | Varislikdən danışarkən onu da qeyd etmək lazımdır ki, mədəniyyətin incəsənət və elm kimi sahələrində varislik müxtəlif cür həyata keçirilir. İncəsənətdə hər bir müəllif əsərinə nəticə verərək tamamlayır. Bu, rəsm, kitab, mahnı və s. ola bilər. Bunların hər biri ayrıca sənət nümunəsi olduğuna görə varislik özünəməxsus məzmun kəsb edir. Elm və texnikada isə, varislik bir başqa cür məzmuna malikdir. Məsələn, amerikalı alim Norbert Vinerin (1894-1964) hesablama texnikası haqqındakı nəzəriyyəsi «kibernetika» adlı elmin yaranmasına səbəb oldu. Beləliklə, mədəniyyətdə varislik özünü bu formada da nümayiş etdirir. |
| 6 | Elm və incəsənətdə varisliyi fərqləndirən iki əsas məqam haqqında da danışmağa dəyər; elmdə edilən hər bir dövri kəşf özündən əvvəlkilər üzərində çevriliş xarakteri kəsb edir; incəsənət əsərləri isə, əbədi yaşardır. |

## III BÖLMƏ. DÜNYA MƏDƏNİYYƏTİN TARİXİ

### DÜNYA MƏDƏNİYYƏTİN TARİXİ TİPLƏRİ

| | |
|---|---|
| **1** | **İBTİDAİ-İCMA QURULUŞU MƏDƏNİYYƏTİ (E.Ə. IV MİNİLLİK)** |
| **2** | **QULDARLIQ CƏMİYYƏTİNİN MƏDƏNİYYƏTİ (E.Ə. V ƏSR)** |
| **3** | **FEODAL CƏMİYYƏTİN MƏDƏNİYYƏTİ (XIII ƏSRİN AXIRLARI )** |
| **4** | **RENESSANS VƏ REFORMASİYA DÖVRÜNÜN MƏDƏNİYYƏTİ (XIII - XVI- XVII Ə.)** |
| **5** | **BURJUA CƏMİYYƏTİNİN MƏDƏNİYYƏTİ (XVII - XIX Ə.)** |
| **6** | **MÜASİR MƏDƏNİYYƏT (XX - XXI Ə.)** |

### İBTİDAİ DÖVRÜN MƏDƏNİYYƏTİ:

| | |
|---|---|
| **ARXAİK MƏDƏNİYYƏTİN 3 MƏRHƏLƏSİ:** | |
| 1 | **HETEROGEN(QEYRİ-YEKCİNS PLURALİZM)** |
| 2 | **HOMOGEN (YEKCİNS,DIFFERENSASİYA,COXSAYLI QRUPLAR)** |
| 3 | **HOMEOSTATİK(TABU)** |

### İBTİDAİ MƏDƏNİYYƏTİN MƏRHƏLƏLƏRİ:

| | |
|---|---|
| **"DAŞ DÖVRU"-** MİLADDAN I MİLYARD 2 MİLLİON QABAQ-IV MİNİLLİK: | |
| 1 | **QƏDİM DAŞ DÖVRÜ-PALEOLİT** -2 MİLLİON İL QABAQ |
| 2 | **ORTA DAŞ DÖVRÜ-MEZOLİT**-2 MİLLİON İL QABAQ |
| 3 | **YENİ DAŞ DÖVRÜ-NEOLİT-**7 MİN İL QABAQ |
| **"MİS DÖVRU"(ENEOLİT)-**E.Ə.IV-II MİNİLLİK | |
| **"TUNC DÖVRÜ"-**E.Ə.II MİNİİLİYİN SONU-I MİNİLLİYİN ƏVVƏLİ | |
| **"DƏMİR DÖVRÜ"** –I MİN İL ƏVVƏL | |

## QƏDİM VƏ ANTİK MƏDƏNİYYƏTİ
## IKIÇAYARASI MƏDƏNİYYƏTİ:

| MESOPOTAMİYA (İKİÇAYARASI)MƏDƏNİYYƏTİ<br>E.Ə.IV-III MİNİLLİK | |
|---|---|
| **SUMER (KƏNGƏR"-ki-en-gir"-"etibarlı sahiblərin diyarı" mənasını verən ) MƏDƏNİYYƏTİ** | **DÜNYADA BİRİNCİ SİVİLİZASİYA SAYILIAN -SUMERLƏR , ONLARIN MƏDƏNİYYƏTİ VƏ İRSİ.**<br>**DİL:*AQLUTİNATİV, SUMER DİLİNDƏ ADI SÖZ SIRASI: MÜBTƏDA-TAMAMLIQ – XƏBƏR;PRATÜRK; -SONRALAR TÜRKDİİLİ* QRUPLAR YARANDI :*ETRUSKLARTURANLAR,, XƏZƏRİLƏR, HUNLAR, TÜRKLƏR (ASİA, ALTAY TÜRKLƏRİ , AMERİKALI HİDULAR VƏ S.);***<br> <br>***SUMERLAR ÖZLƏRİNİ "SAG-GİG-GA "—* «QARABAŞLILAR» ADLANDIRIRDILAR;SELDƏN ƏVVƏL *DİLMUN* ADASINDA YAŞAYIRDILAR.**<br> <br>**SUMER YAZISI E.Ə. IV MİN.-MİXİ YAZILAR.-DÜNYADA ƏN QƏDİM YAZILARDIR:*SUMERLAR DÜNYADA BİRİNCİ TARİXİ POEMA "QIZIL ƏSR",BİRİNCİ ELEGİYALAR,BİRİNCİ KİTABXANA KATALOQU,QƏDİM TİBB KİTABLARI-DƏRMAN RESEPTLƏRİ, HİMNLƏR; BİRİNCİ ƏKİNÇİLİK TƏQVİMİ;ƏKİLƏN BİTKİLƏRİN QORUNMA ÜSÜLÜ;BALIQLARIN QORUĞU,ALTİ ONLUQ SİSTEMI,* MEMARLIQDA *-ZİKKURAT-YÜKSƏK PİLLƏLİ QALA(PİRAMİDA)*-( EN-** |

***MƏBƏDİN BAŞ KAHİNİ*,ENSİ-*MƏBƏDİN TƏMƏLİNİ QOYAN KAHİN) VƏ GÜMBƏZ, DİVAR VƏ TAVAN TAĞLARİ YARATMIŞDILAR.***






***SUMER-MİXİ YAZILARI GENİŞ YAYILMIŞDIR:ÖN ASİYA,SURİYA,QƏDİM FARS VƏ B.DÖVLƏTLƏRƏ.***

"**<u>GİLQAMIŞ HAQQINDA DASTAN</u>**":***URUK ŞƏHƏRİN ŞAXI GİLQAMIŞ (E.Ə.XXVIII Ə.)VƏ ONUN SÜLALƏSİ HAQQINDA TARİXİ YAZILAR***: **GİLQAMIŞ-** ***ADI İNSANIN*** VƏ ***NİNSU*** XANIM ***ALLAHIN(MƏLƏYİN) OĞLUDUR***.O ÖLMƏZLİYN SİRRİNİ TAPMAQ ÜCÜN BÜTÜN DÜNYANI GƏZİR VƏ **ENKİD** ADLI İNSAN İLƏ DOSTLAŞIR. BURADA HƏMÇİNİN DÜNYAVİ SEL HAQQINDA ƏFSANƏ VAR:ALLAHLAR(MƏLƏKLƏR)BÜTÜN YER ÜZÜNDƏ BÜTÜN CANLILARI VƏ İNSANLARI(GÜNAHLARINA GÖRƏ) MƏHV ETMƏK İSTƏYİRLƏR,YALNIZ BİR İNSANA – ***ZİUSUDRA(****ZİUDSUDRA)****YA ALLAH KÖMƏK EDİR,O ONUN MƏSLƏHƏTİ İLƏ BÖYÜK GƏMİ TİKİR , BAŞQA YERƏ GƏMİLƏ ÜZÜR, MƏSKAN SALIR.

*BAŞQA BİR POEMA*

**"ATRAXASİS(**TƏRCÜMƏ"MÜDRÜKLİYİ ÜSTÜNLÜK EDƏN"**) HAQQINDA POEM"-**

BURADA İNSANIN YARANMA HAQQINDA BİR RƏVAYƏT SÖYLƏNİR:ƏVVƏLLƏR ,İNSAN OLMAMIŞ VAXTDA, YER ÜZÜNDƏ ALLAHLAR(MƏLƏKLƏR) YAŞAYIRDILAR, AĞIR İŞLƏR GÖRÜRDÜLƏR(AĞIR ZƏMBİLLƏRİ DAŞİYİBLAR VƏ İŞLƏYİRDİLƏR).ƏZİYYƏTLƏRƏ DÖZMƏYİB,ONLAR GİLİ BİR AŞAĞI RÜTBƏLİ ALLAHIN(MƏLƏYİN) QANI İLƏ QARIŞDIRIB İNSANI YARADILLAR, BU İNSANA- ƏVƏZÇİ MƏHLUQA- ÖZ İŞLƏRİNİ YÜKLƏDİRDİLƏR. İNSANIN ƏSAS MƏQSƏDİ- YER ÜZÜNDƏ ALLAHLAR(MƏLƏKLƏR ) ÜCÜN İŞLƏMƏK OLDU..**YAZILAR** -MİXİ YAZILARI.







**SUMER ALLAHLARI(MƏLƏKLƏRİ**):

ƏN MƏHTƏŞƏM VƏ GÜCLÜ ALLAHLAR(MƏLKLƏR):

**AN**-GÖYLƏRİN VƏ BÜTÜN ALLAHLARIN ATASI,***URUK ŞƏHƏRİN*** HİMAYƏÇİSİ;

**ENLİL**-KÜLƏK, HAVA ,YERİN VƏ GÖYÜN BÜTÜN MƏKANI, ƏKİNÇİLİYİN ,YER KURƏSİNİN ALLAHI.ONUN MƏBƏDİ-***NİPPUR ŞƏHƏRDƏ OLUB*** VƏ O ŞƏHƏRİN HİMAYƏÇİSİ İDİ;

**ENKİ**- ***EREDU ŞƏHƏRİN***

| | |
|---|---|
| | HİMAYƏÇİSİDİR,OKEAN VƏ BÜTÜN ŞİRİN YERALTİ SULARİN ALLAHI(MƏLƏYİ);<br>**NANNA**-AY ALLAHI (MƏLƏYİ)***VƏ UR ŞƏHƏRİN*** HİMAYƏÇİSİ,<br>**İNANNA-*URUK ŞƏHƏRİN*** HİMAYƏÇİSİ, MƏHSULDARLIQ, SEVGİ VƏ HƏRBİ QƏLƏBƏ ALLAHIDIR( MƏLƏYİDİR);<br>**UTU-**GÜNƏŞ ALLAHI, ***SİPAR VƏ LARSI ŞƏHƏRİN*** HİMAYƏÇİSİ, İSTİLİK VERƏN VƏ QİZMAR DÖZÜLMƏZ İSTİNİ GÖNDƏRƏNDİR**;**<br>**NERQAL**- ÖLÜ DÜNYANIN VƏ TAUNUN ALLAHIDIR(MƏLƏYİDİR).<br>***SONRALAR SUMER DİLİ –İBADƏT VƏ ELM DİLİNƏ KEÇDİ***<br>**Dünya araşdirmalar:**<br><br>1. *Thomsen M.-L.* The Sumerian Language. — Copenhagen: Akademisk Forlag, 1984. — P. 70. — ISBN 87-500-3654-8.<br>2.Qurbansoy F.Azərbaycana göndərilən peyğəmbərlər.Monoqrafiya.-Bakı,2017,-S.126<br>3. Крамер, С. Н. Шумеры. Первая цивилизация на Земле / Пер. с англ. А. В. Милосердовой. — М.: ЗАО Центрполиграф, 2002. — 383 с.<br>4. Otto Reriq.Prototürklər və Amerikalı hindular https://forum.ykt.ru/viewmsg.jsp?id=33600013<br>5. Oscar Stig Wikander «Maya and Altaic: Is the Maya Group of Languages Related to the Altaic Family», Ethnos 32, 1967, pp. 141-48. («Maya və altay dilləri: Maya və Altay dili qruplarına aiddilər?)<br>6.Latıpov F.R. Lemnos adasından Hərbi şöhrət abidəsinə qoyulmuş Şərqi Tirren kitabəsinin hərtərəfli linqvistik təhlili,(etrusklar haqqında) -Ufa, - "Poliqrafservis", - 2008, -S.48.<br>7.BakıxanovA.Q.Gülistan-i-İrəm.-Bakı,-Elm,-1991,-S..394<br>8.Qumilyov L.N. Xəzər ətrafındakı minillik, -B., -Azərnəşr, -1990<br>9.Qumilyov L.N. Xəzəryanın kəşfi, M., - Rolf, 2001 |

| | |
|---|---|
| | |
| **AKKAD MƏDƏNİYYƏTİ** | **DİL**: FLEKSİV, SAMİ DİLLƏRİ QRUPU<br>**AKKAD ALLAHLARI(MƏLƏKLƏRİ**):<br>ƏN MƏHTƏŞƏM VƏ GÜCLÜ ALLAHLAR(MƏLƏKLƏR):<br>**ANU-** GÖYLƏRİN ,BÜTÜN ALLAHLARIN ATASI;<br>**EA-** OKEAN VƏ BÜTÜN ŞİRİN YERALTİ SULARİN ALLAHI(MƏLƏYİ);<br>**SİN**-AY ALLAHI(MƏLƏYİ);<br>**ŞAMAŞ-**GÜNƏŞ ALLAHI ,İSTİLİK VERƏN VƏ QİZMAR DÖZÜLMƏZ İSTİNİ GÖNDƏRƏNDİR;<br>**İŞTAR-**,MƏHSULDARLIQ , SEVGİ VƏ HƏRBİ QƏLƏBƏ ALLAHIDIR( MƏLƏYİDİR). |
| **BABİLİSTAN MƏDƏNİYYƏTİ** | ***SUMER-AKKAD SİVİLİZASİYALARININ DAVAMÇISI*** ; MƏRKƏZİ -**BABIL (TƏRCUMƏ “ALLAHIN QAPİSİ” )ŞƏHƏRİ** E.Ə.II MİN.<br>**HAMMURAPİ-** BİRİNCİ BABİL ŞAHI,**ONUN “QANUNLAR MƏCƏLLƏSİ**”- NDƏ BABİL SAKİNLƏRİN İQTİSADİ ,HƏYAT TƏRZİ,ADƏTLƏRİ ÖZ ƏKSİNİ TAPMIŞDIR<br>***TAM AZAD VƏTANDAŞ - “AVİLUM***”ADLANIRDI ;**BABİL QALASİ-** ONUN HAQQINDA MÜXTƏLİF DİLLƏRİN YARANMASI RƏVAYTİ MƏŞHURDUR. |
| **ASSURİYA MƏDƏNİYYƏTİ** | **AŞURBANİPAL ÇARI-**E.Ə.VII Ə.- **NİNEVİY**ADA ONUN SARAYI YERLƏŞİRDİ. AŞURBANİPAL ÇARİ-COX SAVADLİ DÖVLƏT BAŞÇISI İDİ. **O *QƏDİM SUMER YAZI* ABİDƏLƏRİNİ TOPLAYIRDI VƏ ONLARIN MƏDƏNİYYƏTİNİ ÖYRƏNİRDİ.**<br>**E.Ə.VI Ə. YENİ VAVİLONU FARSLAR –II KİR(E.Ə.530 ) HUCUM VƏ ZƏBT ETDİ.** |

## SUMER GİL YAZILARI

